# Nizami Gəncəvinin fəlsəfi irsində "Ədalət" nəzəriyyəsi

**Açar sözlər**

İnsan, Ədalət, Hüquq, İdeal dövlət

## Giriş

Qərb və Şərq fikir və fəlsəfə tarixində "Ədalət" (Justice) ən təməl mövzulardan biri, bəlkə də birincisidir. İnsan azadlıqı da məhz ədalətə çatmaq üçün tələb edir.[1] Müsəlman fəlsəfəsində və İslam sxolastikasında "Ədl" Tanrının bir adı kimi təqdim edilir. Ədl adil mənasınadır. Yəni Tanrı adildir. Burada izah olunur ki, Ədalət həddini bilməkdir. Bunun qarşılığında "Zülm" - həddini aşmaqdır. İnsan yaranışdan bəri həmişə həddini aşmağa meyilli olub. Bəşər tarixinin elə bir dönəmi yoxdur ki, orada zülm-haqsızlıq-həddi aşma problemi olmasın.[2] Elə bu səbəbdən də Ədalət məsələsi tarix boyu filosofların, fikir adamlarının aktual olaraq diqqət mərkəzində olub. Qədim Yunan fəlsəfəsində Ədalət ən təməl Fəzilət (Virtue) kimi verilirdi. Təsadüfi deyildir ki, sonralar fəlsəfənin bir qolu kimi ərsəyə gələn Siyasət və Əxlaq fəlsəfəsinin də ən mühüm və fundamental sualı və problemi budur: "Ədalət" necə əldə olunur? Cəmiyyətdə hansı rəftar ədalətə uyğundur? Maraqlı məqam ondan ibarədir ki, bu iki sahədə "Ədalət nədir?" sualına cavab verilmir. Sanki Ədalət instiktiv bir istək, aksiomatik bir məfhum kimi qəbul olunur. Məsələn biz "Varlıq" məfhumunun izahını vermirik və buna ehtiyac da duymuruq. Axı, varlıq məfhumu aksiomatik olaraq dərk olunur. Ədalət məfhumu da az qala varlıq məfhumu kimi şəffaf təsəvvür olunur. Yəni elə bir rasional düşüncəli insan tapılmaz ki, ədalətə talib olmasın, ədalətdən qaçsın.

---

[1] . Davəri, Rza, Əxlaq dər əsre modern, Soxən, Tehran, 1391 (2013), s.162.
[2] . Davəri, Rza, Neqahi no be siyasət və fərhəng, Soxən, Tehran, 1391 (2013), s.240.

Ədalət haqda müxtəlif mülahizələr irəli sürülüb. Burada Ədalətin iki fərqli müstəvidəki anlamını bir-birindən ayırmalıyıq: ontoloji aspekt və hüquqi-əxlaqi-siyası müstəvi. Birinci odur ki, kainat və yaradılış sistemi tam ali bir nizam üzərində bərqərardır. Yəni kainat tam ədalətli bir nizamdır. Burada  tarazlıq xırda da olsa pozulsa sistem məhvə məhkum olar. Qədim yunan fəlsəfəsində, islam ilahiyyatında, habelə orta əsrlər xristian sxolastikasında ədalətin bu izahı məqbul hesab olunurdu. Lakin 18-ci ərsdən başlayaraq "modernizm"  dalğası bütün sferalarda baxış bucaqını dəyişdi. Daha kainat ən mükəmməl və ədalətli sistem kimi qəbul olunmurdu. Burada ədalətin ikinci müstəvidəki anlamı aktuallıq qazanmaqa başladı.[3] Siyasi-hüquqi fəlsəfənin yeni və modern əsasları qoyulurdu. Ən vacib və fundamental sual bu idi: mədəniyyətdə, iqtisadiyyatda və siyasi-ictimaı-hüquqi sahədə hansı davranış "ədalət"ə uyğundur?

Modern əxlaq-siyasət fəlsəfəsində yuxarıdakı suala 3 əsas cavab sərgilənir. Daha doğrusu burada 3 fərqli tendesiyanın şahidiyik: liberalizm, utilitarianizm və fəzilət (virtue)nəzəriyyəsi. Liberalistlər azad iqtisadiyyatı, utilitarianistlər isə "faydalılıq" prinsipini ədalətin meyarı hesab edirlər. Fəzilət nəzəriyyəsi isə tam başqa yöndə ədalət məsələsinə yanaşır. Əsası qədim yunan fəlsəfəsinə, xüsusilə Aristotelin düşüncələrinə dayanan bu nəzəriyyədə bildirilir ki, cəmiyyətdə məhz o rəftar ədalətə uyğundur ki, o bütün hamının xoşbəxtliyinə xidmət etsin. Burada Ədalətin özü təməl fəzilət kimi qəbul olunur.[4] Bu məqalədə biz 12-ci əsrin görkəmli müsəlman filosofu Nizami Gəncəvinin Ədalət nəzəriyyəsinə işıq tutmaqa cəhd edəcəyik. Həmçinin göstərəcəyik ki, Nizaminin yanaşması daha çox fəzilət nəzəriyyəsinə yaxındır. Burada əsasən

[3] Davəri, Neqahi no be siyasət və fərhəng, s. 241
[4] Bax. Sandel, Michel, Justice: What's the Right Thing to Do?, Farrar,Straus and Giroux, New York, 2010

Nizaminin Xəmsə (beşlik) əsərinə istinadən onun əxlaq filosofu kimi ədalət barədə mülahizələrini şərh etməyə çalışacağıq.

## 1. Nizami Gəncəvi filosof kimi

Nizami Gəncəvi 12-ci əsrdə Azərbaycanda, Gəncə şəhərində yaşayıb. Onun zəngin kitabxanası və geniş mütaliə dairəsi olub. İlahiyyat və Fəlsəfə sahələrində yüksək təhsilə sahiblənib. Yunan fəlsəfəsini dərin araşdırmalar əsasında əxz edib. Nizami Gəncəvi fars dilində zəngin ədəbiyyat-şeir nümunələri yaradıb. Onun yaradıcılığını farsdilli poeziyanın zirvəsi, əsas sütünlarından biri adlandırırlar.[5] Nizami Gəncəvinin Xəmsəsi epik və lirik ədəbi-fəlsəfi nümünəsi kimi bu günə qədər aktualdır. Xəmsə (beşlik) Sirlər xəzinəsi (Məxzənül-əsrar), Xosrov və Şirin, Leyli və Məcnun, Yeddi gözəl ( Həft peykər) və İskəndərnamədən ibarətdir. Sirlər xəzinəsi və İskəndərnamədən başqa, digər üç əsər lirik ruhda qələm alınıb. Bu üç əsərdə verilən sevgi dastanları olduqca bədii üslubda tərtib olunub. Filosof şairin İskındərnamə əsərinin qəhrəmanı e.ə. 4-cü əsrdə yaşamış qədim Yunanıstanın məşhur sərkərdəsi makedoniyalı İskəndərdir. Bu əsər və Sirlər xəzinəsi epik ruhda yazılıb. Nizami lirik-aşiqanə məzmunlu əsərlərində də böyük ustalıqla özünün ictimai-siyasi-fəlsəfi ideyalarını təqdim etməyə müvəffəq olmuşdur. Məhz bu cəhətə görə orta əsrlərdə onun irsini tədqiq edən alimlər ona “həkim” ləqəbini vermişlər.[6] Həmin dövrdə həkim filosofa deyilirdi. Nizaminin fəlsəfəyə və yunan irsinə olan diqqəti həmin dövrdə müsəlman dünyasında anti-fəlsəfə ruhunun hakim olması ilə baş verirdi. 11-ci əsrin məşhur teoloq-filosofu Abu Hamid Qəzali yunan fəlsəfəsini sərt tənqid edərək bu yöndə müxtəlif əsərlər yazmış və islam dünyasında fəlsəfəyə qarşı kəskin mübarizə cərəyanı formalaşdırmışdı. Maraqlı

---

[5] Mətini, Calal, Ədalət əz nəzəre Nezami Gəncəvi, Məcəlleye İranşenasi, Sale 6, Şomare 21. 1373 (1997), s.67.

[6] Mətini, s. 68.

məqam ondan ibarətdir ki, bütün bu qadağalara rəğmən. müasirlərindən fərqli olaraq Nizami fəlsəfi fikrə rəğbətlə yanaşmış, əsərlərində, xüsüsilə İskəndərnamə poemasında yunan filosoflarının təbiət, həyat, insan və bu kimi fundamental məsələlərə aid mühakimələrinə geniş yer vermişdi.[7]

Nizami sufi kimi tanınmasa da onun misraları irfani məqamlarla zəngindir. Sirlər xəzinəsi əsəri filosofun irfani şəxsiyyətinin aynasıdır. Bu əsərdə əsas diqqət "İnsanın qəlbi"dir. Bütün arif-sufilərin baxışında qəlb həqiqətin təcəlla-zühur etdiyi məkandır.[8] Lakin Nizami Gəncəvinin şəxsiyyətinin fəlsəfi çaları təkcə onun İskəndərnamədəki yunan filosoflarına istinadən açdığı metafizik bəhsləri və Sirlər xəsinəsindəki irfani düşüncələri ilə məhdudlaşmır. O əsl həqiqətdə  həm də orta əsrlərin müsəlman filosofu kimi ictimai-siyası mövzuların dərin qatlarına enən siyasi fəlsəfənin  əsas ideya sahiblərlərindən biri hesab olunur. Burada "siyasi" ifadəsi təkcə "hakimiyyət"-ə və dövlətçiliyə aid olan məsələlərə deyil, bütünlüklə ictimai xarakter daşıyan problemlərə şamil olur. Başqa təbirlə desək "Siyasi fəlsəfə" təbirindəki "siyasi" ifadəsi "ictimai" sözü ilə sinonimdir. Əslində qədim yunan filosofu Aristotel də "siyasət" deyəndə ictimai məsələləri nəzərdə tuturdu. Deməк, əgər yer üzündə iki insan varsa artıq siyasət var. Yəni həmin iki insanın bir-birlə ictimai davranışlarını tənzimləyən qaydalar olmalıdır. Əgər "əxlaq" sözü ən geniş mənada (insanın davranışlarında yaxşı və pis işlər) işlənərsə o zaman Siyasi fəlsəfə Əxlaq fəlsəfəsinin bir hissəsi olacaq. Yəni Siyası fəlsəfə sırf fərdi xarakterli davranışları deyil, sosial yönümlü yaxşı-pisləri əhatə edəcək sahə kimi təsvir edilir. Bu mənada Nizami həm də siyasət-əxlaq filosof kimi təqdim oluna bilər. Sirlər xəsinəsinin müqəddiməsində o bir sufi-arif kimi nəzəri irfan sahəsinə girir, ariflərin "xəlvət" vərdişindən söz açır. Amma əsərin davamında o siyası-

[7] Mətini. s. 69.
[8] Sərvət, Mənsur, Gəncineye hekmət dər asare Nezami, Əmir Kəbir, Tehran, 1387 (1999), s.52.

ictimai nəzəriyyə  məkanına varid olur. Əsərin 20 məqaləsindən 2 məqaləni Ədalət və insaf mövzusuna həsr edir. Burada zərif bir nüans sezilir: Nizami fəlsəfi sistemınə əsasən icitimai ədalətin binövrəsi irfandır. Yəni cəmiyyətdə, sosial münasibətlər müstəvisində ədalətli insan olmaq üçün əvvəlcə Tanrı ilə irfani xəlvətə çəkilməli, nəfsini paklaşdırmalısan.

Nizami Gəncəvinin filosof simasını tam təsvir etmək üçün geniş tədqiqatlara ehtiyac var. Burada onun Ədalət nəzəriyyəsinə işıq tutmaq üçün müqəddimə olaraq bəzi məqamları aydınlaşdırmaqa çalışdıq. İndi isə Nizamı Gəncəvinin Ədalət və İnsaf adlandırdıqı mövzunun təqdimatına keçirik. Lakin ədalət insanın əsas hüquqlarından biri olduğu üçün öncə Nizaminin məhz "İnsan" konsepsiyası haqda qısa təqdimatı zəruri hesab edirəm.

## 2. Nizami Gəncəvi fəlsəfəsində İnsan və onun məqamı

İnsan kimdir, onun mahiyyəti nədir? İnsan dəyərli varlıqdırmı? İnsanın dəyərinin mənbəyi nədir? Bu suallar qərb və şərq tarixində əsas fəlsəfi suallar sırasındadır. "İnsan" bütün zamanların ən aktual mövzusudur. İnsan bir sıra hüquqlara sahib, həmçinin məyyən vəzifələri olan varlıqdır. Modern dövrdən əvvəlki dönəmdə insan daha çox vəzifələrinin axtarışında idi. Modernizmdən sonra isə o əsasən hüquqlarını tələb edir. Burada əsaslı bir sual meydana çıxır. Dəyərsiz varlıqın hüquqları olar bilərmi? Əsla. Demək insan hüquqlarının təməl tezisi budur: "İnsan dəyərli və ehtirama layiq varlıqdır." Nizami Gəncəvinin Əxlaq fəlsəfəsinin binövrəsi bu mühüm tezisdir. İkinci prinsip budur: İnsan dəyərli olduqu üçün bir sıra fundamental və təməl hüquqlara malikdir.

Filosof şair Sirlər xəzinəsi əsərinin yeddinci məqaləsində insanın möhtəşəm məqama sahib olduğuna təkid edir. Hətta qeyd edir ki, bütün digər mövcudat

insanın nazını çəkir.[9] Nizami insanın yüksək dəyərini vurğulayarkarn poeitk təbirlərdən yararlanır. O insana xitabən sankı onu əzizləyir: Sən dünyaya gəldikdən sonra süd deyil, şəkər içmisən.[10] Nizami insan haqda mülahizələrini daha da inkişaf etdirərək əlavə edir: İnsan o qədər əzəmətli və zəngin varlıqdır ki, kainatda olan mövcudatın hamısında sanki onun vücüdunun zərrəcikləri vardır. Yəni insanın qabiliyəti və zərfiyyəti o qədər genişdir ki, bütün varlıqlarda insanın nişanəsi, ünvanı görünür.[11]

Əbu Hamid Qəzali "Kimyayi səadət" (Xoşbəxtlik iksiri) əsərində yazır: İnsanın fitrəti (daxili dünyası, xəmiri) Tanrı rəngindədir. Lakin saf güzgüyə bənzəyən insan qəlbi bəzən dünya hərisliyi və şəhvətlə paslanır. Belə olan halda qəlb Tanrının aynası ola bilmir.[12] Qəzalinin sözləri əslində insanın həm cismani, həm də ruhani varlıq olmaqına işarədir. İnsan təkcə cism deyil, onun ehtiyacları təkcə cismanı ehtiyaclar deyil, onun ruhunun da qidası var. Hətta Mövlana Ruminin təbirincə desək, insanın şəxsiyyəti, onun insanlığının məğzi və əsası onun ruhudur. Ruha nəzarət olunmalıdır. Əks təqdirdə insanın varlıqı sarsılacaq, tarazlıq pozulacaq, qəlb öz funksiyasını itirəcək. Dahi Nizami də bu fəlsəfəni əsas götürür. Onun Xəmsəsi başdan başa insanın mənəvi təkamülünə, onun ruhunun mənəvi seyrinə həsr olunub. Burada verilən qəhrəmanlar böyük ruha sahib şəxsiyyətlərdir. Nizaminin "insan"-ı Tanrıya təzim edir. Leyli və Məcnun əsərinin başlanğıcında Tanrıya xitabən zəngin mətləblər açıqlanır:

Ey adı ən gözəl başlanğıc olan,
Adınla başlanır yazdığım dastan,
Sən, ey xatirəsi könlümə həmdəm,

[9] Nizami, İlyas ibn Yusif, Kolliyate Xəmse,Tehran, 1389 (2001), s. 92.
[10] Nizami, s. 92
[11] Nizami, s. 93.
[12] Tusi, Qəzali, Əbu Hamid, İmam Muhammad, Kimyaye səadət, Tehran, Elmi, fərhəngi, 1360 (1982) cild 2. s.31

Adın düşməmişdir dilimdən bir dəm.
Bütün varlıqları özün yaratdın,
Bağlı qapılara açardır adın.
Adının qərarı olmadan əvvəl,
Qələm tutmamışdır dünyada bir əl.
Ey bütün varlığın həyat təməli,
Yetməz dərgahına bir insan əli.[13]

Nizaminin təsvir etdiyi insan ilahi xislətlidir. Nədir bu ilahiliyin əsas xassəsi? Ədalət. İlahilik fitridir, insanın yaranışında onun varlığına hopdurulan istəkdir. Ədalət də fitri tələbdir, insanın təməl haqqı-hüququdur. "Xəmsə əsərində, Sirlər xəzinəsindən İskəndərnaməyə qədər filosof şair ideal cəmiyyət-dövlət yaratmaq əzmindədir."[14] Lakin burada mühüm bir məqama diqqət ayırmalıyılq. İdeal cəmiyyət ideal insan olmadan yarana bilərmi? Məgər cəmiyyət fərdlərdən ibarət gerçək deyilmi? Demək, Nizami ideal cəmiyyətlə bərabər həm də ideal insan haqda düşünür. Əslində onun İskəndərnamə əsərindəki İskəndər obrazı bütün həyatı boyu mənəvi təkamül yolunu qət edən və sonda peyğəmbərlik məqamına çatan kamil-ideal insandır. Düzdür, burada peyğəmbərlik məqamı deyəndə səmavi dinlərdəki peygəmbərlik nəzərdə tutulmur. Nizami özü də bir ilahiyyat alimi kimi bu məsələyə agahdır. Demək ideal insan modeli yaratmaq mütəfəkkir şairin əsas amallarından biridir. İndi isə Nizaminin ideal insanının əsas və təməl xüsusiyyəti, yəni Ədalət prinsipi haqda olan məqamların şərhinə keçirik.

## 3. Şah və Ədalət

[13] Gəncəvi, Nizami, Lider nəşriyyatı, Bakı, 2004, s.15.
[14] Zərrinkub, Əbdülhüseyn, Pire Gənce dər costocuye nakoja abad, Soxən, Tehran, 1377 (1999) s. 240.

XX əsrin tanınmış siyası filosofu Con Rauls siyasi fəlsəfədə "Ədalət" nəzəriyyəsi ilə məşhurlaşdı. O tədqiqatlarının ikinci dönəmində Ədalət (Justice) məfhumunu İnsaf (Fairness) məfhumu ilə eyniləşdirdi. Rauls, ədalətli olmaqı insaflı olmaq kimi dəyərləndirdi.[15] Maraqlıdır, XII əsrin filosofu Nizami Gəncəvi Ədalət təbirini işlədərkən ardınca İnsaf ibarəsini gətitir. Sirlər xəzinəsi əsəri 20 maqalə və ya söhbətdən ibarətdir. Burada 2-ci və 4-cü söhbətlər ədalət və insaf məsələsinə həsr olunub. 2-ci söhbətdə ədalətin və insafın əhəmmiyyətinə təkid edir. O, məmləkətin sabitliyini yalnız ədalətlə mümkün olacaqənı vurğulayır. Ədalət gələrsə insanın ağlı və zəkası sevinər.[16]

Poemanın davamında 531-579-cu illərdə İranda hökmranlıq etmiş Sasani padşahı I Xosrov Nuşirəvan şahın vəziri ilə söhbəti verilir. Onlar viran qalıb, xərabəyə çevrilmiş bir kəndin yanından keçərkən səssiz kənddən 2 toyuq səsi eşidirlər. Vəzir şaha dərhal ədalət məsələsini xatirladır. Bildirir ki, məmləkətin idarəçiliyində ədalət prinsipi hakim olmasa gələcəkdə viran qalmış kəndlərin sayı yüz minlərə çatacaq. Nəticədə ölkə xarabalığa çevriləcək.

Bu poemanın 4-cü məqaləsində məşhur bir hekayə nəql edilir:  qoca qarı və Sultan Səncər hekayəsi. Sultan Səncər həmin dövrdə daim eyş-işrətdə olan, ədalətdən xəbərsiz Səlcuqi hökmdarıdır. Şəhər hakimi (Sultanın təyin etdiyi hakim) bir qatili tapmaq üçün qoca qarının evinə hücum çəkir, ondan zorla qatil haqda məlumat istəyir. Qoca qarı isə qatil barədə məlumatsızdır. Qarının Sultana şikayəti və ona dediyi sözlər poemada yüksək bədii tərzdə təsvir edilir. Qoca qarı Sultanı qiyamət gününün hesab-kitabından qorxudur. Ona xatırladır ki, şahın vəzifəsi insanlara çətinlik yaratmaq deyil, onların çətinliyini həll etməkdir, zəiflərin başına sığal çəkməkdir, ac zavallıların komasına işıq saçmaqdır, yaralı

[15] Bax. John Rawls, Justice As Fairness, The Belknap Press of Harvard University Press, 2001
[16] Nizami, 1389, s.72.

könüllərə dərman olmaqdır. Deyir ki, şahdan xalqa həqarət gəlməz, güc-qüvvət gələr. Budur ədalət, budur insaf.[17]

Sirlər xəzinəsinin 14-cü məqaləsində yenidən rəiyyətin şahla dialoqu yer alır. Qoca bir kişi zalım şahın zülmlərindən danışır. Şahın xəfiyyəsi bunu görür və şaha xəbər aparır. Şah qocanı saraya çağırır. Qoca dəstəmaz alır və saraya yollanır. Şahla üz üzə dayanan qoca onun bütün zülmlərini qorxmadan deyir. Şah qəzəblənir. Qoca özünü onun qarşısında dayanan güzgüyə bənzədir. Şaha bildirir ki güzgü sənin eyblərini sənə göstərərkən güzgünü sındırma, eyblərini islah et, aradan qaldır. Bu sözlər şahın qəlbinə yatır, rəftarını dəyişir və ədalətli olmaqa qərar verir.[18]

Xosrov və Şirin poemasının əvvəlində Nizami, Sasanı hökmranı Hürmüzün, oğlu Pərvizə qarşı ədalətli rəftarını şərh edir. Pərviz ova çıxır və yorulur. Yaxındakı kəndlərdən birinə gedir və orada musiqi-şərab məclisi təşkil edərək səhərə qədər əylənir. Pərvizin atı kəndlilərin həyətinə girib icazəsiz otlayır, qulu da icazəsiz bir kəndlinin bağına girir. Xəbər Hürmüzə çatır və o dərhal oğlunu cəzalandırır. Şair bu dastanı nəql etdikdən sonra atəşpərəstlik dininə sitayiş edən Hürmüzün ədalətini dövürünün müsəlman şahlarına nümunə kimi göstərir. Nizaminin ibarələrindən məlum etmək olur ki, onun fikrincə müsəlmanın ədalətli olmağı daha vacibdir.[19] Əsərin sonunda həkim Nizami yenidən fəlsəfi fikrin dərinliklərinə enir. Zülmün qarşılıqsız qalmayacaqını bildirir. Həyat ədalətin beşiyidir. Bu filosofun təsbitidir. Nə edirsənsə bunun bədəlini ödəyəcəksən. Kainat nizam-intizam, ədalət üzərindədir. Başqasına quyu qazırsansa bir gün həmin quyuya özün düşəcəksən.

[17] Nizami, 1389, s.81.
[18] Nizami, 1389, s.124
[19] Nizamı, Xosrov və Şirin, s.42

“Bütün cahana bir nida gəldi: Kim başqasına pislik edirsə əslində özünə pislik etmişdir.” Çünki təbiət zülmkarı cəzalandırır. Bu mütləqdir.[20]

Yeddi gözəl poemasında şah və ədalət məsələsinə daha geniş yer verilib. Sasani şahı Yəzdgerd ölür və camaat onun oğlu Bəhramın atasının taxtına oturmasına qarşı çıxırlar. Səbəb Yəzdgerdin ədalətsiz olmasıdır. İnsanlar ogulun da atanın yolunu getməyindən ehtiyatlanırlar. Lakin Bəhram millətin qarşısında Ədalət xübəsilə çıxış edir və ədalətli hökmdar olmasına söz verir. O bir müddət ədalətli davranır. Ədalətli olduğu müddətdə həm xalq ondan razı olur, həm xaliq-Tanrı. Lakin o sonralar yolunu azır. Məmləkət zülmə qərq olur. Bəhram bir gün yolda bir çobanla rastlaşır. Ölkədəki ağır durumu və vəzirin ona xəyanət etməsini anlayır. Yenidən ədalətə bərqərar etməyə cəhd edir və müvəffəq olur.[21]

Nizaminin xəmsəsindən şahların ədaləti və ədalətsizliyi haqda hekayələri nəzərdən keçirdik. İndi isə onun ədalətlə bağlı digər bir ideyasına baxaq. Bu, 16-cı əsrin siyasi filosofu Tomas Murun təbirilə desək Utopiya və ya ideal dövlət haqqında irəli sürdüyü mülahizilərdir.

## 4. Nizami və utopiya

Utopiya, ideal dövlət modeli, ideal cəmiyyət konsepsiyasıdır. Qədim yunan filosofu Platon (e.ə. 4-cü əsr) Dövlət əsəri yazmaqla İdeal dövlətin strukturunu, şərtlərini və əsaslarını verməyə çalışdı. Sonralar bu ənənə filosoflar tərəfindən davam etdirildi. Müsəlman filosofu Əl-Farabi (872-950) ideal dövlət nəzəriyyəsi yaratdı. Utopiya ədalət məsələsinə sıx bağlıdır. Çünki məhz ədalətin ən yüksək

[20] Nizami, Xosrov və Şirin, s.374
[21] Nizami, Yeddi gözəl, s.305

olduğu dövlət, ideal dövlət statusu ala bilir. Nizami Gəncəvi İskəndərnamə əsərinin son hissəsində ideal dövlət barədə düşüncələrini bölüşür, bunun xüsusiyyətlərini, forma və məzmununu təsvir edir. O, peygəmbərlik  məqamına çatdəqdan sonra yenidən dünyanın seyrinə davam edir. Bir şəhərə rast gəlir. Şəhər əhli səfa-səmimiyyət içində yaşayır. Şəhərin qapıları və orada olan bər-bəzəkli dükanlar qıfılsızdı.[22] Qocalar İskəndərin pişvazına gəlirlər. İskəndər onlardan soruşur: Necə ola bilir ki, sizin bağlarınız bağbansız, sürüləriniz çobansızdır? Onlar cavab verirlər: Bu şəhərin əhalisi həqiqətən dinə sitayiş edən insanlardı. Onların həyat meyarı dürüstlük və sədaqətdir.[23] Əgər bizdən kimsə ziyan görsə hamı onun ziyanını aradan qaldırmaq üçün əlbir olur.[24] Bizim cəmiyyətdə bərabərlik hökm sürür. Bizim varımız, mal-mülkümüz bərabərdir. Bu səbəbdən kimsə yoxsul deyil ki, varlılar ona rişxənd etsin.[25] Bizim dövlətə, hakimiyyətə ehtiyacımız yoxdu. Axı heç kim başqasının malına göz dikmir, kimsə oğurluq etmir.[26] Buranın əhalisi dünya malına hərislik etmir möhtəkirliklə, var-dövlət yığmaqla məşgul olmur. Əgər ova getsək və ovladıqlarımız çox olsa biz israf etmərik, ehtiyacımız qədərində ondan yeyərik.[27] Bu şəhərin əhalisi kifayət qədər uzun ömür yaşadıqdan sonra dünyadan köçərlər. Bu səbəbdən biz ölülərimiz üçün üzülmərik.[28]
İskəndər bütün bu gördüklərindən təccüblənir və qərara alır ki, onların həyat tərzini seçsin.

[22] Nizami, İskəndərnamə...
[23] İskəndərnamə...
[24] Yenə ora...
[25] Yene
[26] Yene
[27] Yenə s..
[28] Yenə..

**Nəticə**

Nizami Gəncəvinin insan, ədalət, ideal dövlət və bu kimi fundamental mövzulara münasibətindən aşağıdakı nəticəl əldə olunur:

**Birinci**. Nizamiyə görə ədalət və din bir-birinə bağlı olan məfhumlardı. Qoca qarınının Sultan Səncərlə dialoqunda qarının qiyamətdən söz açaraq sultanı ədalətə dəvət etməsi, qoca kişinin dəstəmaz alaraq şahın görüşünə getməsi və orada böyük şücaətlə şahın qarşısında dayanması, Bəhramın ədalətli olması ilə Tanrının razılığını qazanması kimi faktlar bunu deməyə əsas verir ki, Nizami Gəncəvi XX əsrin bəzi siyasi filosofları (Maykl Sandel, Lev Ştraus, Mak İntayer) kimi ədalət məsələsində din faktorunu unutmur.

**İkinci.** Nizami ədalətin bərqərar olmasını ədalətli hakimin sayəsində mümkün hesab edir. Başqa təbirlə desək, filosofa görə ictimai-siyasi müstəvidə ədalətin icrası fərdi zəmində ədalətli olmaqdan daha əhəmmiyyətlidir. Çünki hakimiyyət səviyyəsində ədalət icra edilməsə ayrı-ayrı fərdlərin ədalətli olması cəmiyyəti xoşbəxt edə bilməyəcək. Düzdür, cəmiyyət fərdlərdən və şəxslərdən ibarət bir fenomendir, lakin unutmayaq ki, qanunların icrası məhz hakimiyyətin və dövlətin əlindədir. Qanun ədalətli olmasa və yaxud ədalətli qanun hakimiyyət səviyyəsində icra edilməsə ölkə bataqlıqa batacaq və bu, fərdlərin hüquqlarının tapdalanması ilə nəticələnəcək. Bu fakt bir daha bu mühüm gerçəyi isbat edir ki, Nizami ictimai təfəkkürlu filosofdur. O orta əsrlər dövründə yaşasa da hakimin və hakimiyyətin ədalətli olması barədə dərindən düşünür və ədalət prinsipini məhz bu əsasla möhkəmləndirir. Burada digər bir nüans gözə dəyir: Orta əsrlər dövrünün müsəlman filosofu Nizami Gəncəvi siyasi ədalət haqda fikir yürüdürsə bu həmin dövrün müsəlman təfəkkürünün mütərəqqi səviyyəsinə bariz nümunədir. Deməк,

islam və müsəlman filosofu röhbaniyyəti sevmir. Röhbaniyyət və cəmiyyətdən təcdir olma ənənəsi hətta 12-ci əsr müsəlman filosofuna yaddır. O individuallıqdan imtina edərək dövlət prinsiplərindən çıxış edir. Bu ənənə, yəni siyasi-ictimai fikir ənənəsi 14-cü əsrdə İbn Xaldun tərəfindən davam etdirildi.

**Üçüncü**. Məşhur bir sual var: Cəmiyyət filosofu yaradır, yoxsa filosof cəmiyyəti? Bu sualı düzgün cavabı belədir: Şübhəsiz cəmiyyətin sosial-siyasi durumu filosofun formalaşmasında əsaslı rola malikdir. Lakin filosof həmin cəmiyyətdə formalaşandan sonra oranın vəziyyətini və problemlərini tənqid edə bilər. Nizaminin yaşadıqı dövr və ərazi  səlcuq sultanlarının Böyük atabəylərinin hakimiyyətinə təsadüf etmişdi. Zülm, haqsızlıq ən yüksək həddə çatmışdı. Belə bir dövrdə yaşayan Nizami ömrünün bir neçə ilini cəmiyyətdən təcrid olsa da, o xəlvətə çəkilib siyasi-fəlsəfi məzmunlu ədəbiyyat nümunələri yaradırdı, zalım hakimiyyətə qarşı ədəbiyyatın dili ilə mübarizə aparırdı. Bu Nizaminin dühsının başqa bir səhifəsidir.